Akif lizad Prezident Administrasiyasına müraci t etdi

Yazan
22.11.13 21:25 -



"Rəsədxana yaxınlığında tikintiyə qadağa qoyulsun"

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti Akif Əlizadə Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanası yaxınlığında binaların tikintisinə qadağa qoyulması üçün Prezident Administrasiyasına müraciət edib.

Akif Əlizadə bu gün keçirdiyi mətbuat konfransında bildirib ki, rəsədxana gecə çalışır və binaların işıqları müşahidəyə mane olur.

O, bu kimi hallar aradan qaldırılmalı olduğunu vurğulayıb: “İnanıram ki, Prezident Administrasiyasında bizim narahatlığımıza reaksiya veriləcək. Mətbuatın da bu məsələni diqqət mərkəzində saxlamağa çağırıram”.